**Sədiyyə Xanlarova**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, elmi işçi*

Xanlarova.Sadiya.@mail.ru

## MİLLİ İDEOLOGİYAMIZIN BANİSİ-HEYDƏR ƏLİYEV

**Açar sözlər:** *Azərbaycan, ideologiya, Elmlər Akademiyası, tarix, dil.*
**Ключевые слова:** *Азербайджан, идеология, Академия наук, история, язык.*
**Key words:** *Azerbaijan, ideology, Academy of Science, history, language.*

Azərbaycanda xalqın mənafeyini, istək və arzularını ifadə edən milli ideyaların yaranması və milli məfkurəyə çevrilməsi tarixən milli özünü təsdiq zərurətindən baş vermiş, hər cür qatı millətçi çalardan tamamilə uzaq olmuşdur. Milli məfkurənin təşəkkülü özünün ilkin mərhələsindəAzərbaycan xalqının milli oyanış, milli-mədəni dirçəliş, milli birlik və azadlıq amallarının vəhdətindən irəli gələn milli idealın təcəssümü idi. Milli məfkurənin təşəkkülü özünün ilkin mərhələsində maarifçilik xarakteri daşımış, vətənpərvərlik, xəlqilik, milli həmrəylik ideyalarından qaynaqlanmışdır. XX əsrin əvvəllərində milli azadlıq hərəkatı gedişatında islamçılıq, türkçülük, müasirlik kimi təməl ideoloji prinsiplər əsasında siyasi yöndə milli istiqlal məfkurəsinin formalaşması və bunun məntiqi nəticəsi olaraq müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin müasir anlamda milli ideologiyanın yaranış tarixində çox mühüm hadisə olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətindən sonra 70 illik sovet dövründə marksizm-leninizm ideologiyası, proletar beynəlmiləlçiliyi prinsipləri beyinlərə yeridildi, xalq milli kökündən, ideologiyasından, dinindən uzaqlaşdırılmaq təhlükəsi qarşısında qaldı, keçmişi, tarixi unutdurmaq səyləri gücləndi. Bütün bunları dərindən dərk edən ulu öndər, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1993-cü ilin 21 sentyabrında Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşündəki çıxışında deyirdi: "Hər bir sistemin ideologiyası olmalıdır. Məsələn, o zaman tarixçilər bir şəxsin fəlsəfi görüşlərini araşdırarkən, bir əsər yazarkən çalışırdılar ki, bunu marksizm-leninizm ideologiyasına uyğunlaşdırsınlar. Çalışırdılar ki, sənəd tapsınlar ki, guya Nizami Gəncəvi də marksist-leninçi olmaq istəyirmiş. Axı bu belə deyildir. Düzdür, məsələn, əgər axtarıb tapsaydılar və layiqincə göstərə bilsəydilər ki, dünyanın böyük filosofu Höte özünün bəzi fəlsəfi müddəalarını Nizami Gəncəvinin fikirləri əsasında izah etmişdir-bu isə tarixi həqiqətdir-əgər bunu sübut etsəydilər, əlbəttə ki, obyektivlik olardı. Bu onların günahı deyildir, mən heç kimi təqsirləndirmək istəmirəm. Bu, o zamankı quruluşumuzun, dövrün ümumi bəlaları idi" (1, s.201).

Ümummillilider Heydər Əliyev "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət"ində demişdir: "XX əsrdə bizim qazandığımız uğurların, o cümlədən, müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə, xüsusilə XIX əsrdə formalaşmış və təşəkkül tapmış

qaynaqlarda axtarıb tapmaq lazımdır. Bu qaynaqlar həm ayrı-ayrı görkəmli şəxsiyyətlərin, Abbasqulu ağa Bakıxanov və Mirzə Kazımbəy kimi nadir insanların çox uğurlu yaradıcılıq və fəaliyyətində öz əksini tapmış, həm də birbaşa milli maarifçilik ideyalarının gerçəkləşməsi ilə bağlı olmuşdur. Azərbaycanda məhz bu dövrdə demokratik mətbuat, anadilli məktəb, dünyəvi teatr yaranaraq milli şüurun formalaşmasına güclü təkan verdi" (2).

Azərbaycan Xalq Cümhuriyyətinin siyasi-hüquqi varisi kimi təşəkkül tapmış Azərbaycan Respublikasının özünün müstəqil inkişaf yolunda əldə etdiyi ən böyük, həm də ən mühüm nailiyyətlərindən biri də məhz ümummilli liderimizin uzaqgörən müdrik siyasəti və bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində azərbaycançılıq milli ideologiyasının dövlət siyasətində formalaşaraq Azərbaycanda yaşayan yerli xalqların vahid dünyagörünüşünə, məfkurəsinə çevrilməsi, Azərbaycanın coğrafi, siyasi, iqtisadi və mədəni cəhətdən vəhdətinin, milli müstəqilliyinin təminatçısı kimi qərarlaşmasıdır. Bu ideologiyanın həyatiliyi ondadır ki, o dərin və möhkəm köklərə malikdir. Azərbaycançılıq ideologiyasının qaynaqlandığı amillər tarixin süzgəcindən keçən dəyərlər sistemində Azərbaycan maarifçiliyinin irəli sürdüyü vətənpərvərlik, Azərbaycan ideyası, xəlqilik, milli birlik-mədəni, milli-mədəni yeniləşmə konsepsiyası, milli dövlətçilik, azərbaycançılıq, milli müstəqillik və müasirlik kimi ümdə təməl prinsiplər üzərində yüksələn müasir Azərbaycan milli ideologiyasının başlıca elmi-nəzəri, ideya-siyasi mənbələrindən biri kimi xüsusi maraq doğrur.

SSRİ-nin dağılmasından sonra Azərbaycanda baş qaldırmış milli hərəkatda Heydər Əliyevin mövqeyinə nəzər saldıqda görürük ki, ulu öndər azərbaycançılığın ən böyük təbliğatçısı olmuşdur. Xalqımızın tarix boyu əldə etdiyi mədəni nailiyyətləri, dilimizi, milli əxlaqımızı Heydər Əliyev azərbaycançılıq ideologiyasına çevirdi, üçrəngli Azərbaycan bayrağının yenidən müstəqil dövlətimizin bayrağı olmasına nail oldu.

Ulu öndər xalqımızın milli-mənəvi dəyərlərini həmişə uca tutmuş, onları müasir dövrün qarşımıza qoyduğu problemlərlə uyğunlaşdırmağı bacarmışdır. 1996-cı ilin aprelində qurban bayramı münasibəti ilə onun xalqa təbrik müraciətində bunu aydın şəkildə görə bilərik. Müraciətdə deyilir: "Böyük xaliqin bəxş etdiyi nemətlərə görə bu minnətdarlıq günündə etdiyimiz dua və niyyətlərin çoxu doğma Azərbaycanımızın suverenliyinin, ərazi bütövlüyünün qorunmasına, xalqımızın əmin-amanlıq içində, xoşbəxt və firavan həyata qovuşmasına yönəlmişdir. Əminəm ki, sizin bütün arzu və diləkləriniz Allahın köməyi və xalqımızın iradəsi ilə həyata keçəcəkdir.

Bütün müsəlmanların həmrəylik və qardaşlıq bayramı olan mübarək Qurban bayramı günündə hamınızı xalqımızın haqq işinin təntənəsi, müstəqil respublikamızın çiçəklənməsi naminə daha sıx birlik və əzmkarlıq nümayiş etdirməyə çağırıram" (3, s.409).

Bu müraciətdən göründüyü kimi, xalqı qurban bayramı münasibəti ilə təbrik edən ümummilli lider onun müstəqilliyini, suverenliyini, islam həmrəylini bir dəyər kimi nəzərə çatdırmış, vətəndaşları ölkənin ərazi bütövlüyü uğrunda mübarizənin ön sıralarında getməyə çağırmışdır.

2000-ci ilin 9 aprelində "Kitabi-Dədə Qorqud"un 1300 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimində çıxış edən ulu öndər abidənin bütövlükdə türk dünyası üçün əhəmiyyətini vurğulamış, onun əsrlərdən bəri xalqın milli birliyə xidmət etdiyini göstərmişdir: "Bu yubiley bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan tarixi hadisədir...

"Kitabi-Dədə Qorqud" yubileyinin ən böyük mənası, əhəmiyyəti ondadır ki, bizim milli azadlığımızı, dövlət müstəqilliyimizi, sərbəstliyimizi bir daha nümayiş etdirir. "Kitabi-Dədə Qorqud" vəsiyyətləri bizə deyir ki, daim müstəqillik yolu getmək, Azərbaycanın milli azadlığını və dövlət müstəqilliyini ədəbi etmək bizim hər birimizin qarşısında duran ali məqsəddir" (3, s.219).

Heydər Əliyevin ən byük arzularından biri də o idi ki, müstəqil Azərbaycanın hər bir gənci öz tarixini yaxşı bilməlidir. O, haqlı olaraq qeyd edirdi ki, tarixini bilməyən öz xalqına sadiq vətəndaş ola bilməz. Buna görə də ümummilli lider Azərbaycan alimlərinin qarşısında yeni vəzifələr qoydu: Azərbaycan tarixini yenidən işləmək, tariximizi antiazərbaycan ideologiyasından təmizləmək. Tarixi yaddaşda hər bir insanın milli mənlik şüuru əksini tapmışdır. Burada mədəniyyət, adət-ənənə, dil, din, həyat tərzi kompleks şəklidə ifadə olunur. Vətənin milli-mənəvi sərvətlərini dəyərləndirən bir dövlət başçısı kimi Heydər Əliyevin qayğısının bir təzahürü də budur ki, o xalqın qədim tarixi, memarlıq abidələrinin qorunmasını xalqın tarixi yaddaşını yaşatmaq kimi qiymətləndirirdi. O, arzu edirdi ki, xalqın milli mənlik şüurunun ayrılmaz tərkib hissəsi olan tarixi şüur daim onun yaratdığı abidələrlə təmasda olsun (4,s.97). Heydər Əliyev millətin tarixi yaddaşının möhkəmləndirilməsinə, çox diqqətlə yanaşırdı. Məlumdur ki, Qarabağ müharibəsi Azərbaycan xalqının tarixində faciəli izlər buraxmışdır, xüsusən də yüzlərlə insanın vəhşicəsinə qətlə yetirildiyi Xocalı faciəsi xalqımızın ağır itkilərinə səbəb olmuşdur. Ulu öndər bu dəhşətli faciənin unudulmaması üçün Azərbaycanın hər yerində faciə qurbanlarının xatirəsinə abidələrin ucaldılmasını vacib sayırdı.

Məlum olduğu kimi, artıq ötən əsrin 90-cı illərinin ikinci yarısında Heydər Əliyevin göstərişi və bilavasitə rəhbərliyi ilə Azərbaycanın maddi-mədəni irsinin qorunmasının və elmi tədqiqatların mükəmməl hüquqi bazası yaradıldı. Ulu öndərin imzası ilə "Tarixi və mədəniyyət abidələrinin qorunması haqqında" 1998-ci il 10 aprel tarixli və "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə" 1999-cu il 9 oktyabr tarixli respublika qanunları qəbul edilmişdir. Bu qanunlarda abidələrin qorunmasının, tədqiqatların istifadəsinin hüquqi əsasları şərh edilmiş və bütün bunların mühüm dövlət əhəmiyyətli işlər olması göstərilmişdir. Eyni zamanda, işğal olunmuş bölgədəki abidələrin vəziyyəti barədə daxil edilmiş xüsusi maddələrdə həmin ərazilərdəki abidələrin mühafizəsinə nəzarət üçün beynəlxalq təşkilatların qarşısında məsələ qaldırılmasının zəruriliyi göstərilmişdir.

XXI əsrin ilk illəri Azərbaycanın maddi-mədəni irsinin öyrənilməsi tarixnidə yeni bir mərhələnin başlanğıcı oldu. Heydər Əliyevin müdrik siyasəti nəticəsində dünya dövlətləri sırasında öz mövqeyini möhkəmlədən Azərbaycan sürətli iqtisadi və siyasi inkişaf mərhələsinə qədəm qoydu. On ildən artıq bir müddətdə demək olar ki, tam dayandırılmış arxeoloji və etnoqrafik ekspedisiyaların fəaliyyəti məhz bu dövrdən başlayaraq bərpa edildi. Heydər Əliyevin bilavasitə təşəbbüsü və göstərişi

əsasında ilk geniş tərkibli ekspedisiya 2001-ci ildə Naxçıvan bölgəsinə göndərildi. Bu məqsədlə Naxçıvan bölgəsinin seçilməsi heç də təsadüfi deyildi. Ermənistan tərəfindən blokadaya alınmış Naxçıvan ermənilərin daimi hədəfi olmuşdur. Ermənilər bu qədim Azərbaycan torpağının guya onlara məxsus olması barədə saxta təbliğatla məşğul olur və öz əməllərini tarixi faktları saxtalaşdırmaqla ört-basdır etməyə çalışırdılar. Digər tərəfdən, Naxçıvan bölgəsi Azərbaycan xalqının qədim tarixinin bütün mərhələlərini əks etdirən tarixi-arxeoloji abidələrlə zəngindir. Bütün bunları dərindən bilən ulu öndər məhz Naxçıvanı ilk geniş tədqiqat obyekti olaraq seçmişdir. Nəticədə onlarla qədim yaşayış məskənləri və qəbir abidələri, Gəmiqaya komleksində yüzlərlə qayaüstü təsvirlər və digər abidələr aşkara çıxarılaraq tədqiqata cəlb edildi.

Heydər Əliyev Azərbaycanın digər bölgələrindəki mühüm elmi, tarixi əhəmiyyət daşıyan maddi mədəniyyət abidələrinin qorunması üçün də zəruri tədbirlər həyata keçirmişdir. Ulu öndər 2003-cü ildə "Şabran" və "Çıraqqala" qoruqlarının yaradılmasını və "İçərişəhər" qoruğunun fəaliyyətinin təkmilləşdirilməsini nəzərdə tutan sərəncamlar da imzalamışdır.

Heydər Əliyevin məruzə və çıxışlarında Azərbaycan incəsənətinin, onun inkişafının ən mürəkkəb problemləri öz əksini tapmışdır. O, xüsusilə XX əsr Azərbaycan incəsənətinin təşəkkülü, yaradıcılıq potensialı, yeni növ və janrlarının formalaşması problemlərini peşəkar sənətşünas səviyyəsində təhlil etmişdir. Yaxşı məlumdur ki, H.Əliyev öz çıxışlarında Azərbaycan bəstəkarlıq məktəbinin inkişaf etdirilməsinə böyük əhəmiyyət vermişdir. Azərbaycan incəsənətinin yüksək naliyyətlərini təbliğ etmək və inkişaf etdirmək məqsədiylə Heydər Əliyevin təşəbbüsü ilə keçirilmiş görkəmli rəssam, bəstəkar, teatr və kino xadimlərinin yubiley tədbirlərinin və gecələrinin əhəmiyyəti olduqca böyükdür. Hər hansı bir sahəyə aid bu cür tədbirlərin keçirilməsi həmişə həmin sənət növünün inkişafına təkan vermişdir.

Azərbaycan bədii mədəniyyətinin bütün sahələrinin inkişafı, bu prosesdə Heydər Əliyevin bilavasitə iştirakı Azərbaycan sənətşünaslıq elminin inkişafı üçün də əlverişli şərait yaratmışdır. Onun rəhbərliyi dövründə şəhərsalma, memarlıq, təsviri və dekorativ tətbiqi sənətləri, musiqi, teatr və kino sahələrini əhatə edən qiymətli sənətşünalıq əsərləri nəşr edilmişdir.

Müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsində ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri vardır. Azərbaycan dilinin ölkənin dövlət dili kimi elan edilməs bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Ümummilli liderimizin "Millətin milliliyini saxlayan onun dilidir" fikri həmişə aktual səslənmişdir. Təqdirəlayiq haldır ki, ümummilli liderin ideyalarını layiqincə yerinə yetirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşmaqdadır. Qətiyyətlə deyə bilərik ki, bu gün dilimizin inkişafının əsas qarantı da məhz ölkə prezidentidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarından birində dil məsələsinə toxunaraq demişdir: "Biz dilmizi qorumalıyıq. Kim bunu qorumalıdır? İlk növbədə ziyalılar, ədiblər, şairlər, eyni zamanda nüfuzlu insanlar, söz sahibləri, bizim televizya kanalları. Mən də baxıram bizim kanallara. Başqa qüsurlarla yanaşı, bax, bu məni çox incidir. Bizim dilimizə aid olmayan kəlmələr işlədilir. Nə üçün?

Axı, bizim eyni məna daşıyan bir neçə kəlməmiz vardır...Mən hesab edirəm ki, bizim vətəndaşlarımız nə qədər çox dil bilsə, o qədər yaxşıdır. Xüsusilə, gənclərimiz həm rus dilini, ingilis dilini, həm tük dilini bilməlidirlər. Ancaq biz dilimizi qorumalıyıq. Ona görə ki, bu çox ciddi məsələdir" (5).

Bütün bu sadalananlar, ulu öndərin dilimizin, incəsənətimizin ədəbiyyatımızın inkişafı sahəsindəki fəaliyyəti onun azərbaycançılıq ideyasının tərkib hissəsidir. Heydər Əliyev azərbaycançılıq ideyasını dövlətçiliyə şamil etməklə uzun illər sonrakı inkişafımızın əsas istiqamətini müəyyən etmişdir. Akademik Ramiz Mehdiyev Heydər Əliyevin azərbaycançılıq ideyasını şərh edərkən yazır: "Özünün bütün tərkib hissələri ilə birlikdə azərbaycançılığı tamamilə milli ideologiyanın konkret spesifik forması hesab etmək olar. Azərbaycançılıq ideyası bir neçə nisbətən müstəqil təhlil cəhəti üzrə nəzərdən keçirilə bilər:

-əsasən antropologiya (etnologiya), etnoqrafiya, sosial psixologiya linqvistika çərçivəsində nəzərdən keçirilən etnomədəni cəhət;

-sosiologiyanın, politologiyanın və digər cəmiyyətşünaslıq elmlərinin köməyi ilə açılan sosial-siyasi cəhət;

-beynəlxalq siyasət və hüquq sahəsində və digər sahələrdə konkret elmi fənlər vasitəsilə işlənib hazırlanan geosiyasi cəhət" (6, s.22)

İdeologiya olaraq azərbaycançılıq mühüm funksional elementlərlə zəngindir və bunların da mahiyyəti ölkəni mənəvi və fiziki baxımdan zəiflətmək cəhdlərindən qorunmaqdır. İdeologiya inzibati-ərazi quruluşuna görə unitar siyasi quruluş və dövlət idarəçiliyinə görə hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmlənməsinə və inkişafına yönəldilmişdir.

Azərbaycançılıq müstəqil Azərbaycanı sivilizasiyalı dövlətlər sırasına çıxaracaq bir yoldur. Azərbaycançılıq xalqımızın çox əzab-əziyyətlər bahasına nail olduğu tarixi sərvətdir. Bu, ilk növbədə real müstəqilliyə nail olmağın, vahid və bölünməz Azərbaycanın qorunub saxlanması və möhkəmləndirilməsinin siyasi əsasıdır.

Bu gün azəbaycançılıq milli həyatın ahəngdarlığının, konfessiyaların dinc yaşamasının, ölkədə yaşayan bütün etnosların qardaşcasına qarşılığı əlaqəsi və təsirinin çoxəsirlik ənənəsi, onların ümumi taleyi və müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə mübarizəsinin ümumi tarıxı təcrübəsidir.

Azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi, demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapmışdır. İdeologiya kimi azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfi-sosial doktirinasının sosiomədəni və etnik geosiyasi cəhətlərini özündə birləşdirmişdir.

Xüsusi olaraq qeyd etmək istərdik ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş azərbaycançılıq ideologiyası ölkənin modernləşdirilməsi xətti ilə yanaşı birbaşa firavan gələcəyimizin təmini ilə bağlıdır. Nəzərə alsaq ki, Azərbaycan mədəni-tarixi sintezin təcəssümü olaraq Şərq və Qərbin qovuşağında yerləşdiyi üçün xüsusi səciyyəvi ictimai-mədəni xüsusiyyətlərə malikdir, sintez fikri azərbaycançılıq ideyası ilə səsləşir.

Azərbaycançılığın əsas prinsipləri arasında milli dəyərlər, keçmişə hörmət vardır. Və burada mənəvi-mədəni və dini dəyərlərə əhəmiyyətli yer verilsə də azərbaycançılıqda din yeganə eyniləşdirən amil kimi deyil, mədəniyyətin mənəvi potensialının universal inikası kimi çıxış edir.

İdeologiya, milli ideologiya milyonların idarə edilməsində mühüm rol oynayır. Məlumdur ki, o qlobal təsir gücünə malik olmalıdır, mütəhərrik ideyaya əsaslanmalıdır. İdeologiya sistem kimi, təbliğat üçün asan tezislərdən təşkil edilməlidir. Bunlarla yanaşı, ideoloji konsept milli maraqlarla regional və qlobal reallıqlar arasında ziddiyyət yaratmamalıdır. Məsələnin bu tərəfi müstəqilliyini əldə etmiş ölkələr üçün daha əhəmiyyətlidir. Çünki onlar eyni zamanda iki mühüm vəzifənin öhdəsindən gəlməlidirlər. Bir tərəfdən milli özünəməxsusluğu saxlamaq və inkişaf etdirmək lazımdır. Digər tərəfdən isə dünyanın aparıcı hissəsi üçün xarakterik olan sosial-mədəni, siyasi, iqtisadi, mənəvi-əxlaqi və.s meyarlara uyğunlaşmaq lazımdır.

Ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasını tarixi təşəkküldə götürərək ona müasir dövrün tələbləri səviyyəsində yeni məzmun verməsi tarixi hadisədir. Bunun sayəsində azərbaycançılıq güclü və həmişəyaşar ideologiya halına gəlmişdir.

Azərbaycançılığa görə hər bir bir azərbaycanlı başqa mədəniyyətin elementlərinə tolerant yanaşmalıdır. Bunun üçün azərbaycanlıların mənəvi-əxlaqi potensialı kifayət qədərdir. Azərbaycan cəmiyyəti tarixən fərqli mədəniyyətlərin qarşılıqlı əlaqəsindən bəhrələnmişdir. Burada müxtəlif mədəniyyət elementlərinin uyğunlaşmasını, harmoniyasını görmək mümkündür.

Azərbaycançılığın məzmununda milli ilə ümumbəşəriyi ehtiva edən məqamlar kifayət qədərdir. Hazırda dünya Azərbaycanı dini, milli tolerantlığın hökm sürdüyü bir coğrafi-mədəni məkan kimi tanıyır.

**Ədəbiyyat :**


1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. I kitab. – Bakı : Azərnəşr,1997.
2. Əliyev Heydəv. Yeni 2001 ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə xalqa müraciət //"Respublika. - 2000. - 30 dekabr.
3. Heydər Əliyev və mədəniyyət. Üç cilddə. C.1. – Bakı : Nurlar, 2008.
4. Əliyev Q. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi.- Bakı, 2003.
5. http:azerbaijan-news.az/index/php/mod=13607.
6. Mehdiyev Ramiz. Azərbaycançılıq-milli ideologiyanın kamil nümunəsi // "Multikulturalizm" jurnalı. – 2016. - №1.

*Садийа Ханларова*

## ОСНОВОПОЛОЖНИК НАЦИОНАЛЬНОЙ ИДЕОЛОГИИ - ГЕЙДАР АЛИЕВ

**Резюме**

В статье отмечается, что каждый народ должен иметь свою национальную идеологию. В конце двадцатого столетия азербайджанский народ второй раз приобрел свою независимость, построил демократическое государство. В Конституции Азербайджанской Республики утверждается равенство всех граждан страны вне зависимости от их национальной принадлежности, религиозных убеждений. В статье подчеркивается, что основы идеологии азербайджанства нашем обществе были заложены общенациональным лидером Гейдаром Алиевым.

*Sadiya Hanlarova*

## THE FOUNDER OF THE NATİONAL İDEA-HEYDAR ALIYEV

**Summary**

Any people should have their own national idea. At the end of the twentieth century, the Azerbaijani people acquired their statehood and independence a second time. The Constitution of the Republic of Azerbaijan declares the equality of all citizens of the country, regardless of their nationality or religious beliefs. The author and the main propagandist in our society of the idea of Azerbaijanism is the general-national leader of the people HeydarAliyev.